# Qəbələdə İspaniyanın “Kastro Romero Flamenko” ansamblının möhtəşəm konserti olub



Heydər Əliyev Fondunun möhtəşəm tədbiri olan Qəbələ VIII Beynəlxalq Musiqi Festivalı yerli və xarici tamaşaçılara unudulmaz anlar yaşatmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, festivalın proqramına uyğun olaraq iyulun 31-də Heydər Əliyev Konqres Mərkəzinin qarşısındakı parkda quraşdırılan səhnədə İspaniyanın “Kastro Romero Flamenko” ansamblının möhtəşəm konserti olub.

Tanınmış xoreoqraf Kastro Romeronun rəhbərliyi ilə yaradılan ansambl tamaşaçılar qarşısında flamenko sənətini və yüksək keyfiyyətə malik teatr tamaşalarını təqdim edib. İspaniyada ən tanınmış flamenko rəqqasları və xoreoqraflardan ibarət qrupu olan “Kastro Romero Flamenko”nun üzvləri dünyanın ən nüfuzlu səhnələrinin baş rəqqasları kimi şöhrət qazanıblar və bir neçə beynəlxalq mükafata layiq görülüblər.

Maraqlı performanslarını tamaşaçılara təqdim edən Joze Maria Uriarte (zərb alətləri), Joze Maria Romero (rəqqas), Rikardo Kastro Romero (rəqqas), Karmen Maria İglesias Siles (rəqqasə), Daniel Yague İnglada (gitara), Alberto Funes Arjona (vokal), Rosario Kastro Romero (rəqqasə) və Kristal Munoz Jimenezin (rəqqasə) möhtəşəm ifası böyük marağa səbəb olub. Qəbələ səhnəsində qaraçıların çılğınlığı və ehtirası ilə musiqi, ruh, rəqs və qüvvənin mükəmməl simbiozu nümayiş olunub. Yüksək ifa tərzi ilə dünyada tanınan “Kastro Romero Flamenko” ansamblı konsertdə yerli və xarici tamaşaçıların rəğbətini qazanıb və alqışlanıb.